# Qəhrəman ana övladı

Təbiət özü ən gözəl «kitab»dır, rəssamdır. Təbiətdəki hər bir hadisə bir film, teleserial; bədii, sənədli, bəzən də qısametrajlı film, bəzən də faciəvi dramdır. Bəzən əsən külək həzin bir laylaya dönür, bəzən fırtınaya. Yağan yağışlar bəzən; narın-narın yağarsa insanın tarıma çəkilmiş əsəblərinə bir məlhəm; çox zaman tamamilə islansa belə həzin və sıx yağan damcılar insanın ruhi yorğunluğunu, streslərini müsbət auraya köklədiyi üçün hiss olunmur belə. Mükəddər yağışların şiddəti belə onun zillətini bilirsiniz nə vaxt hiss etdirmir? İnsan üçün ən ağır olan bir dərdə «yüklənirkən». Buludların toqquşaraq müharibə səhnəsi saniyələr çəksə belə, onun dəhşət dolu qorxunc səsi insanın varlığını sarır. Göy və yer üzünü lərzəyə salan o səs insanın ruhunu belə diksindirir. Xüsusilə də müharibə zonasında olan qazi və döyüşçüləri... Cismən ani olaraq döyüş anlarını xatırladır bu səs onlara... Şəhidi olan ailələr isə yuxu görürmüş kimi ayılaraq övladını «səsləyir»...

Ancaq günəş dağların arxasınca boylandıqca gecənin qaranlığından qaralan buludlar öz rəngini dəyişməyə başlayırlar. Günəşin şəfəqləri öz nur şəfəqlərini payladıqca buludlar ağ rəngini asta-asta dəyişərək topa-topa göyün ənginliyinə «səpələnirlər». Qara buludlar günəş təbəssümündən məcburən «göyün» gecə - qaranlıq dəhlizinə çəkilərək öz yerlərini tuturlar.

Qısaca qeyd etdiyimiz bütün bu həqiqətləri oxuya bilən üçün həyat hər kəsin oxuya bilmədiyi, hətta oxusa da dərk edə bilmədiyi bir fəlsəfə... Bunları yalnız sevən və kədər içində boğulan canlılar, xüsusilə şüurla düşünə bilənlər anlaya, oxuya bilərlər.

Şəhadət yolçularının əzizləri, şəhadət yolunun son astanasına kimi müdavim olan və hansısa möcüzə nəticəsində həyata «dönənlər» (qazilər) bu fəlsəfi həyat hadisələrini duya bilərlər.

Şəhid valideynləri... Onların qəm yükü qürurü ilə, ağırlığı ilə yanar bir dağ! Yanğısı ilə, ağırlığı ilə şəhid əzizlərinin cismən varlığında... Bunu isə yalnız dərd ortaqları daha yaxşı bilərlər. Şəfayə ananı hər dəfə görəndə dərd yükünün onu necə çulğaladığını hiss edirəm. İnsan ömrünü necə yaşayırsa onun simasına bu ömrün «tablosu» əks olunur. Həmçinin özü hiss etmədən üz cizgilərində, baxışlarında, yerişində, duruşunda, hərəkətlərində. Bir sözlə, həyatında yaşadıqları - sevinci də, kədəridə xarakterində özünə yer tutur.

Şəfayə xanımı danışdırmadan, dinləmədən də onun zəhmət yüklü, dərd yüklü biri olduğu görünür, hiss olunur. 3 övlad anası olan bu qadın övladlarına həm ata, həm ana olmuşdur. Hansısa bir uşağın atası dünyasını dəyişərsə o uşaq atasız adlanar və bunu «qəbul edərək» öz həyatına davam edər. Ancaq atanın yaşadığı tərzdə atasız böyümək o övlada da, onu böyüdən anaya da həm cismani, həm də mənəvi zərbədir...

İnsanın maddi çətinliyi nə qədər problemli bir həyat olsa da, qismən ödənilir; zəhmətinin bahasına; o problem də həll olunur. O insan isə öz gücü müqabilində həyatına davam edir. Bu cismani yükdür, onu kimləsə paylaşa bilir, həll etməsi mümkün olur. Ancaq mənəvi yük insanı daxilən didib parçalayır və kimləsə bölüşə bilmirsən. Mənəvi yükləndikcə insanın yalnız ürəyi yüklənər və hər çırpıntıda əzilə-əzilə yaşar insan.

Mənəvi sarsıntılarla yaşayan insan yalnız öz ürəyi və ağlına güvənər. Belə insan simasından, baxışlarından, xarakterik xüsusiyyətlərindən, davranış tərzindən hiss etdirər özünü, həm də hiss etmədən belə...

Belə bir xanım idi. Hər dəfə onu görəndə ilk baxışdan sakittəbiət, danışığında, davranışında "yerini bilən" bir xanım təsiri bağışlayırdı mənə. Onu yaxından tanımaq istədim... Həm də şəhid balasının baxışları mənimlə danışdı sanki iç dünyasını. Ünvanını öyrəndim...

O qədər zəngin faktları var idi ki, bu şəhidimin. 18 il yaşamasına rəğmən tərcümeyi-halı da böyük



idi. Ananın da, şəhidimin də həyati faktları bir ailənin həyatı bir qəzetə deyil, bəlkə də geniş həyati mövzulu bir kitaba sığmazdı.

**Tanımaq istərdinizmi?**

Səfayə xanım Qəmərvan kəndində anadan olub. 4-cü sinifdə oxuyarkən ailəsi Soltannuxa kəndinə köçdüyü üçün burada yaşamış, kənd məktəbində təhsilini davam etdirmişdir. 1974-cü il təvəllüdlü Səfayə xanım qəmərvanlı, xalası oğlu Qabil Alıcanoğlu ilə ailə qurmuşdur. Onlar bir müddət Ukraynada yaşamış, sonra Azərbaycana qayıtmış, ilk övladı Alcan doğulmuş (1997), 8 aylıq körpəsi ilə yenidən Ukraynaya getmiş, Nic kəndində aldıqları evi qohumuna tapşıraraq vətəndən uzaqda yaşamına davam etmişdir...

**Həyatını həyat kimi yaşamaq istəyi**

Ruslan Qabil oğlu İdrisov 2002-ci ildə Ukraynada doğulmuşdur. Mühacirət həyatı, yaşayış tərzi ağır olduğu üçün anası 3 körpə uşağı ilə ölkəsinə qayıdır və öz ocağına yığışmaq istəyir. Bu 2007-ci ilə təsadüf edirdi. Ancaq Nic kəndindəki öz evinə yığışıb yaşaya bilmirlər. Evdə məskunlaşan qohumu buna imkan vermir. Ailə gah rayon mərkəzində kirayə qalır, gah da dayısının hərbi şəhərcikdəki evində qalırlar. Ruslan İdrisov I-IX sinifləri Qəbələ şəhər 3 saylı tam orta məktəbində, X-XI sinifləri isə hərbi şəhərcikdə oxuyur.

**Yarımçıq arzular**

Körpə ikən uşaqlıq arzularını doya-doya yaşamadı... Ata nəvazişindən uzaq oldu... 5 il çox, həm də çox az idi ata nəvazişi üçün. Hər kəs - körpə uşaq belə öz doğma - isti yuva, isti ocaq hərarətinə möhtac... Həyatda var ola-ola olmaz kimi görmək və bu hissləri yaşamaq çox ağır. Uşaq ikən arzularını bir-bir qəlbinə gömdü... uşaqlıq və yeniyetməliyini həyatın axarına buraxdı. Qardaşı Alcan, bacısı Mələk onun ağ dünyası idi. Onlara baxdıqca bu "ağ rəngin" işıqları Ruslanı anası və bu doğmaları üçün yaşamağa, gələcək arzularını gerçəkləşdirməyə sövq edirdi. Cəmi 18 il yaşadı, bu müddətdə arzuları yalnız "pöhrələnmək" istədi....

İyunun 6-da 18 yaşı tamam oldu...

**Vətən oğlu titulu**

İyulda həqiqi hərbi xidmətə çağırıldı. Hərbi andiçmə mərasiminə Səfayə xanım getmək istəyəndə Ruslan telefonla danışarkən dedi ki, "gəlmə, ana, mən yaxşıyam, kredit verirsən, artıq xərc çəkmə".

Körpə Ruslan anasının həyat yolunun avanqardı idi, arxa-dayağı idi.Nicdəki evlərində təmir işlərini başa vurmaq, ailəsi ilə birgə yaşamaq istəyirdi Səfayə ana...

Ancaq sentyabr ayından Ruslanın da hərbi xidmətdə iştirakl və hərbi təlimlərdə iştirakı və cəbhə bölgəsindəki hadisələr anada müharibənin labüd olduğu hissi yaratmışdır. Ruslan isə son danışığında: Biz yeni əsgərlərik, hələ təlimlərdəyik deyirdi...

"Vətən oğul deyirsə, oğulların yaşı sorulmaz" - deyə düşünürdü Ruslan. Körpə yaşıyla böyük düşüncələri var idi onun. Həyata mühacirətdə göz açmışdı, vətən həsrətli. Ancaq Vətən qoxusu bəlkə də ana qəlbi ilə onun qəlbini birləşdirərək ölkəsinə gətirmişdir... Gəlmişdi ki, vətənin oğlu ola, onun uğrunda oğul borcunu ödəyə.

**Fədai...**

Ruslan Ballı qayada hərbi xidmətə başlamışdı, sonra isə Goranboy rayonunda hərbi xidmətini davam etdirmişdi.

Suqovuşan uğrunda gedən döyüşlərdə iştirak etmişdi. O, Ağbucuq deyilən ərazidə itkin düşüb. Oktyabrın 1-dən itkin düşmək xəbəri güman edilən Ruslanın noyabrın 26-da şəhid xəbəri gəlmişdir. Onun nəşi doğma elinə gətirilərək Soltannuxa kəndində - ana babasıgilin yaşadığı kəndə dəfn olunmuşdu. Həyatda olduğu müddətdə də tam bir isti ev, ocağında yaşaya bilmədiyi kimi, dəfn mərasimi də baba ocağında keçirilmişdir.

Ruslan "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Onun xatirəsini əbədiləşdirmək məqsədilə şəhidin kirayə yaşadığı Muxtar Abduyev küçəsində yerləşən binanın qarşısında bulaq kompleksi inşa edilmişdir.

**Əsgər paltarında görmədi ki...**

Oğul bala atası Rusiyada yaşadığı üçün dəfn olunanda da "atasız" torpağa tapşırıldı. Halbuki ata istəsəydi onu lazımi orqanlar oğlunun dəfninə gəlməsinə şərait yaradardı..

Ana isə... ana isə körpə, ancaq şir ürəkli oğlunu heç hərbi formada görmədi ki... Bu gün şəkillərə baxdıqca oğlunun böyüdüyünü doya bilmədən seyr edir. Ailə qayğılarının məngənəsində sıxılaraq hiss etməmişdi zamanında onun böyüdüyünü... Ruslansız öz doğma ocağı sayılan Nic kəndindəki, evində yaşaya bilmir indi ana. Vaxtında öz evini müəyyən səbəblər üzündən əldə edə bilməyən ana yenə də rayon mərkəzində kirayə evdə yaşayır. Çünki oğlu Alcan, həmçinin özü burada münasib işlə təmin olunmuş, qızı Mələk orta məktəbdə burada oxuyur.

Oğlunun ruhu bu rayondadır... Məkanın cənnət olsun, Ruslan bala!

**BİBİXANIM.**

# Ata vəsiyyəti və İnamlı Zəfər

6 noyabr 2023-cü il tarixdə Qəbələ Rayon İcra Hakimiyyətinin və Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin təşkilatçılığı ilə "Ata vəsiyyəti və İnamlı Zəfər" mövzu-



sunda tədbir keçirilmişdir. İlk öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçərək şəhadətə ucalmış şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Çıxış edən mərkəzin direktoru Qalib Nəbiyev Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində böyük Zəfərin əldə olunmasında misilsiz xidmətlər göstərdiyini, xalqımızın qəhrəmanlığının heç zaman unudulmayacağını vurğulamış, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət siyasətinin hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini diqqətə çatdırmışdır. Sonda mərkəzin tələbələri tərəfindən rəsm sərgisi keçirilmiş, şeir kompozisiyaları səsləndirilmiş və Zəfər Gününə həsr olunmuş videoçarxlar nümayiş olunmuşdur.

# Ümumrayon iməciliyi

Zəfər Günü ərəfəsində Qəbələ rayonunda ümumrayon iməcliyi keçirilmişdir. İməcilik zamanı magistral yollar və küçələr təmizlənmiş, mövcud yaşıllıqlara xüsusi diqqət göstərilmiş, məişət tullantıları üçün nəzərdə tutulmuş konteynerlər və onların ətrafı təmizlənərək daşınmışdır. Tədbirdə idarə və müəssisələrin kollektivləri və rayon könüllüləri iştirak etmişlər.

# Birgə ibadət mərasimi keçirilib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Alban-Udi Xristian dini icmasının birgə təşkilatçılığı ilə Qəbələnin Nic qəsəbəsində Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilən və Vətən müharibəsi günlərində istifadəyə verilən Məryəm Ana ("Bulun") kilsəsində ölkəmizdə fəaliyyət göstərən dini konfessiya nümayəndələrinin birgə iştirakı ilə ibadət keçirilib. Öncə konfessiya nümayəndələrinə Nic qəsəbəsi, burada fəaliyyət göstərən məscid və kilsələr barədə məlumat verilib. Daha sonra kilsənin daxilində şamlar yandırılıb, birgə yaşayış mövzusunda sərgiyə baxış keçirilib. Ölkəmizdə fəaliyyət göstərən müxtəlif dinlərin nümayəndələri öz ana dillərində ölkəmizin birlik və bərabərliyi üçün dua edib, şəhidlərin xatirəsini hörmətlə anaraq qazilərə şəfa diləyiblər.

# Şəhid ailəsi ilə görüş

Zəfər Günü ilə əlaqədar Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyi İkinci Qarabağ Müharibəsi şəhidi Ağaşirin Babayevin ailə üzvləri ilə görüş təşkil etmişdir. Tədbiri giriş sözü ilə muzeyin direktoru Bəxtiyar Vəliyev açaraq 44 günlük müharibədə qələbə-



miz, qəhrəman oğullarımızın hünər və rəşadəti ilə əldə edilmiş zəfər tarixi, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun şücaəti, xalq, hakimiyyət, ordu birliyi mövzusunda geniş çıxış etmişdir.

Şəhidin anası Əsli Babayeva şəhidin uşaqlıq illəri, vətənpərvərlik ruhunda tərbiyəsi,vətənə sonsuz sevgisi haqqında söhbət açmış, dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə etmişdir.

Tədbir çərçivəsində şəhidin anasına muzey kollektivindən xatirə hədiyyəsi təqdim olunmuşdur.